# Yaşayan Əlişir Nəvai

## AMEA-da beynəlxalq elmi konfrans





**AMEA-nın Rəyasət Heyətində dahi özbək şairi Əlişir Nəvainin anadan olmasının 585 illiyinə həsr olunan "Yaşayan Əlişir Nəvai" mövzusunda beynəlxalq elmi konfrans keçirilib.**











Əvvəlcə konfrans iştirakçıları Əlişir Nəvainin Bakıdakı abidəsini ziyarət edib, görkəmli söz ustadının abidəsi önünə əklil və gül dəstələri düzüblər.

Daha sonra beynəlxalq tədbir iştirakçıları AMEA Rəyasət Heyətinin binası, eləcə də 100 il öncə Türk dünyasını ilk dəfə birləşdirən Birinci Türkoloji Qurultayın keçirildiyi Rəyasət Heyətinin Böyük akt zalı ilə tanış olublar.

Konfransı giriş sözü ilə **AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli** açaraq Əlişir Nəvainin özbək ədəbiyyatının dünya mədəniyyətinə bəxş etdiyi ən qüdrətli simalardan biri olduğunu vurğulayıb, onun ümumtürk ədəbiyyatında söz sənətinin zirvəsində dayanan korifeylər sırasında şərəfli yer tutduğunu qeyd edib.

Akademik İsa Həbibbəyli bildirib ki, artıq on ildən çoxdur ki, Özbəkistan Respublikasının Azərbaycandakı Səfirliyi və Özbəkistan-Azərbaycan Dostluq Cəmiyyətinin birgə səyləri ilə Əlişir Nəvainin yubileyləri ölkəmizdə ardıcıl və sistemli şəkildə qeyd olunur. Eyni zamanda, AMEA nümayəndələri hər il Özbəkistanda təşkil edilən Əlişir Nəvai Günlərində fəal iştirak edirlər.

AMEA prezidenti vurğulayıb ki, Əlişir Nəvai irsinə dair əlyazmaların saxlanıldığı ən böyük mərkəz Daşkənddən sonra Azərbaycandır. O, AMEA-nın Əlyazmalar İnstitutunda dahi şairin onlarla qiymətli əlyazmasının qorunduğunu söyləyib. Bildirib ki, onların sırasında Əlişir Nəvainin sağlığında köçürülmüş nüsxələri və özbək ustadları qeydləri ilə zəngin əlyazmalar xüsusi əhəmiyyət daşıyır. Bu fakt Azərbaycanın Əlişir Nəvai irsinin qorunması və yaşadılması baxımından mühüm elmi-mədəni məkan olduğunu bir daha təsdiqləyir.

AMEA rəhbəri qeyd edib ki, XX əsrin əvvəllərindən bu günədək ölkəmizdə Əlişir Nəvai haqqında yazılmış, nəşr edilmiş və tərcümə olunmuş yüzlərlə kitab və məqalə, eləcə də onun əsərlərindən ibarət zəngin bir elmi kitabxana formalaşıb.

Akademik İsa Həbibbəyli Azərbaycan xalqının və bütövlükdə türk dünyasının Əlişir Nəvai yaradıcılığına dərin hörmət bəslədiyini söyləyərək bildirib ki, Özbəkistanda Nizami Gəncəvi və Məhəmməd Füzuli irsinə göstərilən yüksək ehtiram Azərbaycanda Əlişir Nəvai yaradıcılığına bəslənilən sevgi və hörmətlə eyni səviyyədədir. Əlişir Nəvai ortaq mədəni yaddaşımızın, ortaq mənəvi gücümüzün simvoludur.

Dahi şairin ən böyük xidmətlərindən birinin türk dilində qələmə aldığı "Xəmsə"si olduğunu diqqətə çatdıran AMEA prezidenti əlavə edib ki, Nizami Gəncəvi, Əmir Xosrov Dəhləvi və Əbdürrəhman Cami də "Xəmsə" müəllifləri olsalar da, bu möhtəşəm ədəbi nümunəni ilk dəfə türk dilində yaradan Əlişir Nəvai olmuşdur. Bu fakt onun türk dünyasına verdiyi tarixi və mədəni töhfənin miqyasını aydın şəkildə göstərir. O, həmçinin Əlişir Nəvainin "Xəmsə"sinin bir neçə il əvvəl professor Ramiz Əskər tərəfindən Azərbaycan dilinə tərcümə edildiyini diqqətə çatdırıb.

Akademik İsa Həbibbəyli vurğulayıb ki, Əlişir Nəvainin əsərlərində Türk dünyası xalqlarının ədəbiyyatı, mənəvi dəyərləri və insan dünyası geniş və dərin şəkildə öz əksini tapır. Təsadüfi deyil ki, Türk Dövlətləri Təşkilatının təsis etdiyi ən ali mükafatlardan biri məhz Əlişir Nəvainin adını daşıyır.

AMEA rəhbəri Nizami Gəncəvi yaradıcılığına ən yüksək dəyəri verən böyük sənətkarlardan birinin də Əlişir Nəvai olduğunu xatırladıb: "Əlişir Nəvainin fikrincə, Nizami Gəncəvi elə bir sənət zirvəsidir ki, onunla "pəncə-pəncəyə" gəlmək heç kəsin hünəri deyil. Eyni qarşılıqlı hörmət və məhəbbət ənənəsini Məhəmməd Füzuli də Əlişir Nəvainin timsalında özbək xalqına göstərmişdir".

Akademik İsa Həbibbəyli çıxışının sonunda qeyd edib ki, Əlişir Nəvainin yubileyinin Birinci Türkoloji Qurultayın 100 illiyi ərəfəsində keçirilməsi xüsusi rəmzi məna daşıyır. O, beynəlxalq konfransın işinə uğurlar arzulayaraq, bu kimi elmi tədbirlərin Türk dünyasının mədəni və elmi birliyinin daha da möhkəmlənməsinə töhfə verəcəyinə əminliyini ifadə edib.

Sonra **Özbəkistan Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Bəhram Aşrafxanov** çıxış edərək Azərbaycan-Özbəkistan münasibətlərinin inkişafından danışıb, iki ölkənin tarixi köklərinin, mədəniyyətinin, dilinin, ədəbiyyatının bir-birinə yaxın olduğunu bildirib. Nəvai irsinə xüsusi diqqət və qayğı göstərildiyini deyən Bəhram Aşrafxanov ölkə rəhbərliyinin dəstəyi ilə qüdrətli söz ustadının yaradıcılığının öyrənilməsi və təbliği üzrə səylərin davam etdirildiyini vurğulayıb. O, Azərbaycanın Əlişir Nəvainin ikinci vətəni kimi qəbul edildiyini söyləyib, Bakı şəhərində Nəvainin heykəlinin ucaldılmasını qardaş ölkənin özbək şairinin xatirəsinə ehtiramının ifadəsi olduğunu qeyd edib.

Səfir Azərbaycanda Əlişir Nəvai ilə bağlı aparılan tədqiqatları yüksək qiymətləndirib. O, beynəlxalq konfransın türkoloji elmin inkişafına, iki ölkə arasında qarşılıqlı faydalı əməkdaşlığın genişlənməsinə, eləcə də Azərbaycan-Özbəkistan elmi-ədəbi əlaqələrinin inkişafına töhfə verəcəyinə əminliyini bildirib.

**Türkiyənin Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri professor Birol Akgün** isə çıxışında Əlişir Nəvainin təkcə XV əsrin böyük şairi deyil, həm də Türk dünyasının böyük söz ustadı və mütəfəkkiri olduğunu söyləyib. Qeyd edib ki, Nəvainin irsi türk dilini mədəniyyət, ədəbiyyat və sivilizasiya dəyərlərinin ötürülməsi vasitəsinə çevirir. O, Türk dünyası şairlərinin ilham mənbəyi və özündən sonra nəhəng ədəbi-fəlsəfi irs qoyub gedən dahi mütəfəkkirdir.

Əlişir Nəvainin türkdilli poeziyanın tərəqqisindəki rolundan bəhs edən Birol Akgün bildirib ki, özbək şairinin qələmə aldığı əsərlər Özbəkistanın və bütövlükdə Türk dünyasının mənəvi yüksəlişinə xidmət edib.

Səfir Əlişir Nəvainin Türk xalqlarının ortaq mədəni irsinə, mədəni şüuruna təsir edən qüdrətli şəxsiyyət olduğunu vurğulayıb, konfransın işinə uğurlar arzulayıb.

Daha sonra **Azərbaycan-Özbəkistan Dostluq Cəmiyyətinin sədri, millət vəkili Eldar İbrahimov** və **millət vəkili Günay Əfəndiyeva** çıxış edərək Əlişir Nəvai yaradıcılığının xalqları birləşdirən güclü mənəvi körpü olduğunu vurğulayıb, konfransı ortaq irsimizə, bəşəri dəyərlərə və qardaş xalqlarımız arasındakı dərin dostluq və həmrəyliyə töhfə kimi dəyərləndiriblər. Qeyd olunub ki, şairin şah əsəri sayılan "Xəmsə"ni türk dilində yazması onun Türk Dünyasına olan sevgisinin, ehtiramının və bağlılığının təzahürüdür.

Tədbirdə **Özbəkistanın "Vətəndaşlar" İctimai Fondunun İdarə Heyətinin sədri Odiljon Səttarov**, özbəkistanlı alimlərdən **professor Marufjon Yoldaşev, dosent Burabiya Rajabova** və **yazıçı Risolat Haydarova** Nəvainin yaradıcılığı, poemalarının ideya mahiyyəti haqqında məruzə ediblər.

Sonda **Pekin Xarici Dillər Universitetinin Azərbaycan dili ixtisası üzrə təhsil alan tələbəsi Zhu Tianxu** dahi mütəfəkkir Əlişir Nəvai yaradıcılığına həsr olunan beynəlxalq tədbirdə iştirak etməkdən məmnunluğunu bildirib, Səməd Vurğunun dillər əzbəri olan "Azərbaycan" şeirini səsləndirib.